**2014-cü ilin xronikası**

**22-24 yanvar** tarixlərində Bakı şəhərində Ümumdünya Gömrük Təşkilatının Avropa Regionu üzrə Milli Tədris Mərkəzləri Rəhbərlərinin 1-ci konfransı keçirilmişdir. Konfransda Azərbaycan da daxil olmaqla, 42 iştirakçı və 5 müşahidəçi ölkənin, eləcə də bir sıra beynəlxalq təşkilatların nümayəndə heyətləri iştirak etmişdir. Konfransı işə başlamazdan öncə tədbir iştirakçıları Fəxri xiyabana gələrək Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin xatirəsini ehtiramla anmış, abidəsi önünə əklil qoymuş, sonra Şəhidlər xiyabanında Azərbaycanın müstəqilliyi və ərazi bütövlüyü uğrunda canlarından keçən Vətən övladlarının məzarlarını ziyarət etmişlər.



**21 fevral** tarixində Dövlət Gömrük Komitəsinin sədri, gömrük xidməti general-leytenantı Aydın Əliyev İtaliya Respublikasının ölkəmizdəki səfiri Ciampaolo Kutillonun rəhbərlik etdiyi nümayəndə heyətini qəbul etmişdir. Aydın Əliyev Azərbaycan ilə İtaliya arasında mövcud siyasi, mədəni əlaqələrdən söhbət açmış, bu əlaqələrin bundan sonra daha da genişlənəcəyinə əminliyini ifadə etmişdir. Komitə sədri vurğulamışdır ki, ölkələr arasında əməkdaşlığın, o cümlədən iqtisadi-ticari münasibətlərin inkişaf etdirilməsində gömrük xidmətinin də öz yeri var və gömrük sistemi bu sahədə körpü rolunu oynayır. Səmimi qəbula görə təşəkkürünü bildirən səfir, respublikamızda diplomatik fəaliyyət göstərməyindən məmnunluğunu ifadə etmiş, təmsil etdiyi hökumətin Azərbaycanla bütün sahələrdə əməkdaşlığa çox böyük önəm verdiyini vurğulamışdır.

**25 fevral** tarixində Dövlət Gömrük Komitəsinin sədri, gömrük xidməti general-leytenantı Aydın Əliyev Almaniya Federativ Respublikasının ölkəmizdəki fövqəladə və səlahiyyətli səfiri xanım Haydrun Tempelin rəhbərlik etdiyi nümayəndə heyətini qəbul etmişdir. Aydın Əliyev

Azərbaycan ilə Almaniya arasında uzun tarixə malik olan ikitərəfli əlaqələrdən məmnunluqla söhbət açmış, bu əməkdaşlığın istər siyasi, iqtisadi, istərsə də mədəni müstəvidə hazırki durumunu yüksək qiymətləndirmiş, əməkdaşlıq sferasının bundan sonra daha da genişlənəcəyinə əminliyini ifadə etmişdir. DGK sədri iqtisadi-ticari əlaqələrdən, iki ölkə arasında ticarət dövriyyəsinin həcmindən söhbət açmış, ümumilikdə münasibətlərin hazırkı inkişafından razılığını ifadə etmişdir. Səmimi qəbula görə təşəkkürünü bildirən Almaniya Federativ Respublikasının ölkəmizdəki fövqəladə və səlahiyyətli səfiri xanım Haydrun Tempel Azərbaycanda səfir kimi fəaliyyət göstərməsindən şərəf duyduğunu, ölkəmizdə sürətli iqtisadi inkişaf tempindən xeyli məmnun qaldığını bildirmişdir.

**10-15 mart** tarixlərində Qırğız Gömrük Xidmətinin Tədris Mərkəzi və ATƏT-in Bişkek şəhərində yerləşən Ofisinin nümayəndələri Bakı şəhərində səfərdə olmuşlar. Səfərdə məqsəd Azərbaycan gömrük əməkdaşlarının tədris və təlim prosesi, həmçinin bu sahədə qabaqcıl təcrübəsi ilə yaxından tanış olmaq idi. Nümayəndə heyəti ilk olaraq, Ümumdünya Gömrük Təşkilatının Bakı şəhərindəki Regional Tədris Mərkəzinin strukturu və fəaliyyəti ilə yaxından tanış olmuşdur. Qonaqlar Azərbaycan gömrük orqanlarına yeni qəbul olunmuş və 4 aylıq ixtisasartırma kurslarında təhsil alan müdavimlərin tədris və təlim prosesini izləmiş, informasiya texnologiyalarının geniş tətbiq olunduğu interaktiv mühazirələrdə yaxından iştirak etmişlər. Bundan başqa, nümayəndə heyətinə Mərkəzdə istifadə olunan tədris-metodiki materiallar, dərs kitabları, tədris proqramları, tədris prosesinin təşkili, haqqında ətraflı məlumat verilmiş və onları maraqlandıran suallar cavablandırılmışdır.

**13 mart** tarixində Dövlət Gömrük Komitəsinin sədri, gömrük xidməti general-leytenantı Aydın Əliyev Raja Almarzoqinin rəhbərlik etdiyi Beynəlxalq Valyuta Fondu ilə Azərbaycan hökuməti arasında BVF Sazişinin IV Maddəsi üzrə məsləhətləşmələr missiyasının nümayəndə heyətini qəbul etmişdir. Aydın Əliyev Beynəlxalq Valyuta Fondu ilə Azərbaycan Gömrük Xidməti arasında mövcud əlaqələrdən məmnunluqla söhbət açmış, əməkdaşlığın gələcək perspektivlərindən bəhs etmişdir. O, ilk olaraq Azərbaycan Gömrük Xidmətinin keçdiyi inkişaf yoluna qısaca nəzər salmış, gömrük sisteminin beynəlxalq standartlara cavab verən təkmil bir struktura çevrildiyini diqqətə çatdırmışdır. Səmimi qəbula və ətraflı məlumata görə Dövlət Gömrük Komitəsinin sədrinə təşəkkür edən Raja Almarzogi respublikamızın hərtərəfli inkişafının onda xoş təəssüratlar yaratdığını bidirmişdir. Beynəlxalq Valyuta Fondunun Azərbaycan hökuməti ilə əməkdaşlığa böyük önəm verdiyini bildirən Almarzogi respublikamızın sürətli inkişaf tendensiyasından razılığını ifadə etmiş, xüsusilə son illər gömrük sistemində əldə olunan nailiyyətlərin BVF tərəfindən yüksək qiymətləndirildiyini diqqətə çatdırmışdır.

**17-18 mart** tarixlərində Gürcüstanın Tbilisi şəhərində Ümumdünya Gömrük Təşkilatının Avropa Regionu üzrə sədr müavini qismində Azərbaycan Gömrük Xidməti və Gürcüstan Gəlirlər Xidmətinin birgə təşkilatçılığı ilə ÜGT-nin Avropa Regionu üzrə Gömrük Xidməti Rəhbərlərinin növbəti konfransı keçirilmişdir. Konfransda Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin sədri, gömrük xidməti general-leytenantı Aydın Əliyevin başçılığı ilə Azərbaycan nümayəndə heyəti ilə yanaşı, ÜGT-nin Avropa Regionuna daxil olan 39 ölkənin gömrük xidmətinin rəhbər şəxsləri, ÜGT-nin Baş katibi Kunio Mikuriya, Şərqi və Mərkəzi

Avropa və Qərbi  Avropa Regionunun Regional Məlumat Əlaqələndirmə Qovşaqları, ÜGT-nin Potensialın Gücləndirilməsi üzrə Avropa Regional Ofisi, həmçinin Özəl Sektorla Məşvərət Qrupunun nümayəndələri iştirak etmişlər. Tədbirdə çıxış edən Gürcüstanın Baş naziri İrakli Qaribaşvili, iştirakçıların Avropa regionu gömrük administrasiyaları təsisatlarının inkişaf strategiyası və prioritetləri barədə maraqlı müzakirələr aparacaqlarına əmin olduğunu vurğulamış, iqtisadi inteqrasiya, azad ticarət və digər məsələlərə dair ölkəsinin mövqeyini açıqlamışdır. Baş nazir, eyni zamanda Azərbaycan hökumətinə son bir ildə bu təşkilatın xətti ilə həyata keçirilən tədbirlərə görə təşəkkürünü bildirmişdir. Tədbirdə Azərbaycan nümayəndə heyəti "Milli Gömrük Tədris Mərkəzləri: Bakı Konfransının nəticələri", "ÜGT-nin İqtisadi Rəqabət Paketinin məqsədlərinə nail olmaqda regional yanaşma" və "Narkotiklərin qanunsuz dövriyyəsinə qarşı mübarizədə potensialın gücləndirilməsi üzrə internet portal" mövzularında təqdimatlarla çıxış etmişdir. Konfrans çərçivəsində Azərbaycan Respublikası Hökuməti və Gürcüstan Hökuməti arasında "Gömrük işi sahəsində əməkdaşlıq və qarşılıqlı inzibati yardım haqqında Saziş" imzalanmışdır.




**7 aprel** tarixində Ümumdünya Gömrük Təşkilatının Bakı şəhərində Potensialın Gücləndirilməsi üzrə Avropa Regional Ofisində Gömrük Əməkdaşlığı Komitəsinin texniki yardım üzrə birinci seminarı işə başlamışdır. Asiya İnkişaf Bankının Mərkəzi Asiya Regional İqtisadi Əməkdaşlıq (CAREC) proqramı çərçivəsində təşkil olunan seminarda Azərbaycan, Qazaxıstan, Türkmənistan, Özbəkistan, Qırğız, Tacikistan, Əfqanıstan, Monqolustan və Cinin gömrük xidməti əməkdaşları, eləcə də Asiya İnkişaf Bankı və Ümumdünya Gömrük Təşkilatının mütəxəssisləri iştirak etmişlər. Tədbirin açılış mərasimində giriş sözü ilə çıxış edən Dövlət Gömrük Komitəsinin sədri, gömrük xidməti general-leytenantı Aydın Əliyev

CAREC Gömrük Əməkdaşlığı Komitəsinin texniki yardım üzrə ilk seminarının təşkilində əməyi olan və tədbirdə fəal iştirak edən beynəlxalq qurumların rəhbərliyinə, eləcə də ölkə nümayəndələrinə təşəkkürünü bildirmişdir.

**30 aprel** tarixində Bakıdakı Xəzər-Avropa Klubunun təşkilatçılığı ilə Dövlət Gömrük Komitəsi rəhbərliyi və Klubun üzvü olan şirkətlərin nümayəndələri arasında görüş keçirilmişdir. Tədbirdə Dövlət Gömrük Komitəsinin sədri, gömrük xidməti general-leytenantı Aydın Əliyev, sədrin müavini, gömrük xidməti general-leytenantı Şahin Bağırov, Komitənin aidiyyəti idarələrinin rəhbər şəxsləri, Almaniya, Çexiya, Bolqarıstan, Türkiyə və Qazaxıstanın Azərbaycandakı səfirliklərinin məsul şəxsləri və Xəzər-Avropa Klubunun üzvü olan bir sıra şirkətlərin nümayəndələri iştirak etmişlər. Görüşü Xəzər-Avropa Klubunun (CEIBC) baş icraçı direktoru Telman Əliyev açaraq, rəhbərlik etdiyi qurumun məramı və fəaliyyəti barədə məlumat vermişdir. O, diqqətə çatdırmışdır ki, Klubun əsas məqsədləri - dövlət orqanları və biznes nümayəndələri arasında əlaqələri inkişaf etdirmək, həmçinin neft sektorundan daxil olan gəlirlərin ölkənin qeyri-neft sektorunun inkişafına yönəldilməsinə yardım göstərməkdir. DGK sədrinin müavini öz təqdimatında gömrük təmsilçiliyi, səlahiyyətli iqtisadi operatorlar, xüsusi gömrük prosedurları və s. sahədə yeniliklər barədə də tədbir iştirakçılarını məlumatlandırmışdır.




**8-9 may** tarixlərində Azərbaycan Respublikası və Toqo Respublikası gömrük xidmətləri arasında əməkdaşlığın inkişaf etdirilməsi məsələlərini müzakirə etmək məqsədilə Dövlət Gömrük Komitəsinin sədri, gömrük xidməti general-leytenantı Aydın Əliyevin başçılıq etdiyi nümayəndə heyəti Toqoda rəsmi səfərdə olmuşdur. Səfərin ilk günü, mayın 8-də Dövlət Gömrük Komitəsinin sədri Aydın Əliyevlə Toqo Respublikası Gömrük və Vasitəli Vergilər Komissarlığının baş komissarı Kodjo Adedze arasında görüş keçirilmişdir. Yarandığı tarixdən bəri əldə etdiyi nailiyyətlərlə yanaşı, Toqo Gömrük Xidmətinin dövrün tələblərinə

çətinliklə cavab verdiyini nəzərə çatdıran baş komissar Kodjo Adedze bu sahədə Azərbaycan tərəfinin dəstəyinə ehtiyac duyduqlarını vurğulamış və bu səbəbdən azərbaycanlı həmkarlarının Toqoya səfərinə görə dərin təşəkkürünü bildirmişdir. Öz növbəsində, DGK sədri Aydın Əliyev hazırkı səfərin ölkələrimizin gömrük xidmətləri arasında beynəlxalq müstəvidə əməkdaşlığın inkişaf etdirilməsinə və perspektiv məsələlərin öz müsbət həllinin tapmasına töhfə verəcəyinə əminliyini ifadə etmişdir.

**12-14 may** tarixlərində Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin sədri, gömrük xidməti general-leytenantı Aydın Əliyevin başçılıq etdiyi nümayəndə heyəti Mərakeş Krallığında səfərdə olmuşdur. Səfərin ilk günü, mayın 12-də Mərakeş Krallığının paytaxtı Rabat şəhərində iki ölkənin gömrük idarələrinin rəhbərləri arasında görüş keçirilmişdir. Görüşdə Mərakeş tərəfinə Azərbaycan iqtisadiyyatı və vergi islahatları barədə məlumat verilmişdir. Aydın Əliyev ölkəmizdə gömrük xidmətinin inkişafından, beynəlxalq əməkdaşlığın genişləndirilməsindən, istər qanunvericilik bazasının möhkəmləndirilməsində, büdcə gəlirlərinin formalaşmasında, istərsə də iqtisadi təhlükəsizliyin təmin edilməsində gömrük orqanlarının rolundan danışmış, xüsusilə maddi-texniki bazanın möhkəmləndirilməsi, informasiya texnologiyalarının tətbiqi istiqamətində həyata keçirilən tədbirlərdən bəhs etmişdir. Görüşdən sonra “Azərbaycan Respublikasının Hökuməti və Mərakeş Krallığının Hökuməti arasında gömrük işi sahəsində əməkdaşlıq və qarşılıqlı yardım haqqında Saziş”in imzalanma mərasimi keçirilmişdir. Mayin 12-də Mərakeşin paytaxtı Rabatda, ölkənin ən nüfuzlu ali təhsil ocağı olan V Məhəmməd adına Universitetdə ümummilli lider Heydər Əliyevin anadan olmasının 91-ci ildönümü ilə bağlı “Azərbaycan və Heydər Əliyev” mövzusunda konfrans keçirilmişdir. Universitetin professor-müəllim heyətinin, tanınmış elm adamlarının, tələbələrinin də iştirak etdiyi toplantıda çıxış edən Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin sədri Aydın Əliyev bildirmişdir ki, ümummilli lider Heydər Əliyev xalqımızın xilaskarı olmuş, dövlət müstəqilliyimizin qorunmasında müstəsna rol oynamışdır. Komitə sədri dahi şəxsiyyətin regionda sabitliyin bərqərar olunmasındakı rolu, iqtisadiyyat, sosial, enerji və digər sahələrdəki gərgin fəaliyyəti haqqında ətraflı danışmışdır. Həmçinin, ulu öndərin Azərbaycanda gömrük xidmətinin inkişafına daima böyük diqqət və qayğı göstərdiyini vurğulamışdır.

**19 may** tarixində Dövlət Gömrük Komitəsinin sədri, gömrük xidməti general-leytenantı Aydın Əliyev Braziliya Federal Gəlirlər Baş katibinin gömrük və beynəlxalq əlaqələr üzrə müavini, Ümumdünya Gömrük Təşkilatının Potensialın Gücləndirilməsi Komitəsinin sədri Ernani Arqolo Çekkukki Filyonu qəbul etmişdir. Qəbuldan öncə görüş iştirakçıları Fəxri xiyabana gələrək Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin məzarı önünə əklil qoymuş, eləcə də görkəmli oftalmoloq-alim, akademik Zərifə xanım Əliyevanın xatirəsini anmış, məzarı üzərinə gül dəstələri düzmüşlər. Sonra Şəhidlər xiyabanında Azərbaycanın müstəqilliyi və ərazi bütövlüyü uğrunda canlarından keçən Vətən övladlarının məzarları ziyarət edilmişdir. Daha sonra Braziliya Federal Gəlirlər Katibliyi baş katibinin gömrük və beynəlxalq əlaqələr üzrə müavini, ÜGT-nin Potensialın Gücləndirilməsi Komitəsinin sədri Ernani Arqolo Çekkukki Filyonun Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin rəhbərliyi ilə görüşü keçirilmişdir. Dövlət Gömrük Komitəsinin sədri Aydın Əliyev Braziliya

Gömrük Xidməti rəhbərinin Azərbaycana səfərindən məmnunluğunu bildirmiş, eləcə də qonağın Bakıda mayın 21-23 tarixlərində keçiriləcək Beynəlxalq Gömrük Universitetləri Şəbəkəsinin konfransına qatılacağına görə minnətdarlığını ifadə etmişdir. Bu səfərin hər iki ölkənin nəinki gömrük xidməti, eləcə də digər sahələrində qarşılıqlı əlaqələrinin yaradılması işinə böyük töhfə verəcəyinə əminliyini söyləyən A. Əliyev qeyd etmişdir ki, bu gün davamlı iqtisadi inkişaf tempi ilə irəliləyən müstəqil Azərbaycan bütün dünya dövlətləri, o cümlədən, Braziliya ilə bütün sahələrdə sıx əməkdaşlıq əlaqələri yaratmaqda maraqlıdır.

**21-23 may** tarixlərində Bakı şəhərində Beynəlxalq Gömrük Universitetləri Şəbəkəsinin (INCU) və Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin birgə təşkilatçılığı ilə "Bali sazişindən irəli gələrək ticarətin asanlaşdırılması: siyasətin gerçəkləşməsi" mövzusunda ilk qlobal konfrans keçirilmişdir. "Gülüstan" sarayında təşkil olunan konfransa 65 ölkədən 200-dək nümayəndə, o cümlədən iqtisadi elmlər üzrə 3 Nobel mükafatı laureatı qatılmışdır. Mayın 21-də, konfrans işə başlamazdan öncə tədbir iştirakçıları Fəxri xiyabana gələrək Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin məzarı önünə əklil qoymuş, eləcə də Şəhidlər xiyabanında Azərbaycanın müstəqilliyi və ərazi bütövlüyü uğrunda canlarından keçən Vətən övladlarının məzarlarını ziyarət etmişlər. Konfransın açılış mərasimində giriş sözü ilə çıxış edən Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin sədri, gömrük xidməti general-leytenantı, Prof. Aydın Əliyev bildirmişdir ki, Azərbaycan Gömrük Xidməti gömrük sahəsində əməkdaşlığın gücləndirilməsi, modernləşdirilmə və kadrların peşəkarlıq səviyyəsinin artırılması məsələlərinə xüsusi diqqətlə yanaşır və bugünkü konfrans da sözügedən istiqamətdə nailiyyətlərin əldə edilməsinə öz töhfəsini verəcək. Yekun nitqində isə Prof. Aydın Əliyev Azərbaycan paytaxtında belə mötəbər bir tədbirin keçirilməsinin ölkəmiz, eləcə də bütün dünya üçün mühüm əhəmiyyətinə toxunmuşdur. DGK sədri bildirmişdir ki, dünyada çox tanınmış və gömrük siyasətini müəyyən edən mütəxəssis və alimlərin iştirak etdiyi konfransın nəticələri gömrük orqanlarının gələcək fəaliyyəti üçün əhəmiyyətli olacaqdır.



**4 iyun** tarixində Bakı şəhərində Müstəqil Dövlətlər Birliyi üzv dövlətlərin Gömrük Xidməti Rəhbərləri Şurasının 59-cu iclası keçirilmişdir. Tədbirə Azərbaycan, Belarus, Qazaxıstan, Qırğızıstan, Moldova, Rusiya, Tacikistan və Özbəkistan gömrük xidmətlərinin nümayəndə heyətləri qatılmışdır. İyunun 4-də iclas iştirakçıları tədbirdən öncə Fəxri xiyabana gələrək Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin məzarı önünə əklil qoymuş, eləcə də Şəhidlər xiyabanında Azərbaycanın müstəqilliyi və ərazi bütövlüyü uğrunda canlarından keçən Vətən övladlarının məzarlarını ziyarət etmişlər. Sonra iclasın açılış mərasimi keçirilmişdir. Mərasimdə giriş sözü ilə çıxış edən Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin sədri, gömrük xidməti general-leytenantı Aydın Əliyev Azərbaycanla MDB üzv dövlətləri arasında bütün sahələrdə əməkdaşlıq münasibətlərindən, eləcə də bu dövlətlərin gömrük xidmətlərinin əlaqələrindən bəhs etmiş, əməkdaşlığın dərinləşdirilməsi üçün qarşılıqlı fəaliyyətin, təcrübə mübadiləsinin əhəmiyyətini vurğulamışdır. DGK sədri həmçinin bildirmişdir ki, təkcə bu ilin ötən dövrü ərzində Bakı şəhərində gömrüklə əlaqədar iki beynəlxalq tədbir - yanvarın 22-24 tarixlərində ÜGT-nin Avropa Regionu üzrə Milli Tədris Mərkəzləri Rəhbərlərinin 1-ci konfransı, mayın 21-23 tarixlərində isə Beynəlxalq Gömrük Universitetləri Şəbəkəsinin (INCU) “Bali sazişindən irəli gələrək ticarətin asanlaşdırılması: siyasətin gerçəkləşməsi” mövzusunda ilk qlobal konfransı keçirilmişdir. Sonda MDB üzv dövlətlərin Gömrük Xidməti Rəhbərləri Şurasının 60-cı iclasının bu ilin sentyabrında Rusiya Federasiyasında keçirilməsi qərara alınmışdır.

**3 iyun** tarixində Dövlət Gömrük Komitəsi sədrinin müavini, gömrük xidməti general-leytenantı Şahin Bağırov ölkəmizdə səfərdə olan Qazaxıstan Respublikası Maliyyə Nazirliyinin Gömrük Nəzarəti Komitəsinin sədr müavini Amaniyaz Yerjanovun rəhbərlik etdiyi nümayəndə heyətini qəbul etmişdir. Şahin Bağırov vurğulamışdır ki, Azərbaycan və

Qazaxıstanı tarixən qardaşlıq münasibətləri birləşdirir; ildən-ilə bu münasibətlər daha da dərinləşir və həyata keçirilən birgə layihələr bunun bariz nümunəsidir. Qazaxıstan və Azərbaycanın qardaş və tərəfdaş ölkələr kimi uğurlu inkişaf yolu ilə sürətlə irəlilədiklərini bildirən Komitə sədrinin müavini eyni zamanda, Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin müasir Azərbaycan dövlətinin yaranıb formalaşmasındakı müstəsna xidmətlərini xatırlatmış, dahi şəxsiyyətin layiqli davamçısı Prezident İlham Əliyev tərəfindən bu gün ölkədə həyata keçirilən quruculuq və inkişaf proseslərinin önəmindən bəhs etmişdir. İki qonşu ölkənin ikitərəfli münasibətlərinin müxtəlif sahələrdə uğurlu inkişafından məmnunluqla söhbət açan Komitə sədrinin müavini əməkdaşlığın bundan sonra da davamlı olacağına əminliyini ifadə etmişdir. Səmimi qəbula görə təşəkkürünü bildirən Qazaxıstan Respublikası Maliyyə Nazirliyinin Gömrük Nəzarəti Komitəsinin sədr müavini Amaniyaz Yerjanov Azərbaycana səfərindən və Bakı şəhərinin timsalında ölkədə görülən böyük işlərdən məmnun qaldığını söyləmişdir.

**8 iyun** tarixində BMT-nin Narkotiklər və Cinayətkarlığa qarşı Ofisinin(UNODC) nümayəndələri ilə Dövlət Gömrük Komitəsində görüş keçirilmişdir. Dövlət Gömrük Komitəsi sədrinin müavini, gömrük xidməti general-leytenantı Əsgər Abdullayev UNODC Icraçı Direktorunun Kabinet rəhbəri Roberto Arbitrionun rəhbərlik etdiyi nümayəndə heyətini qəbul etmişdir. Qonaqları səmimiyyətlə salamlayan DGK sədrinin müavini Əsgər Abdullayev Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsi və BMT-nin Narkotiklər və Cinayətkarlığa qarşı İdarəsi arasında qurulacaq əməkdaşlıq imkanlarından bəhs etmişdir. Səmimi qəbula görə təşəkkür edən Roberto Arbitrio qarşılıqlı əlaqələrin inkişaf etdirilməsinin vacibliyindən bəhs etmiş, Azərbaycanın iqtisadi baxımdan sürətlə inkişaf etdiyi və artıq BMT-nin proqramlarına donorluq edəcək səviyyəyə gəldiyini vurğulamışdır. O təmsil etdiyi qurumla yanaşı, region ölkələrinin də Azərbaycan Gömrüyünün bəzi sahələrdə əldə etdiyi yüksək təcrübədən faydalanmasının vacib olduğunu bildirmişdir.

**9-13 iyun** tarixlərində Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin nümayəndə heyəti Uruqvay Şərq Respublikasında səfərdə olmuşdur. Dövlət Gömrük Komitəsinin sədri, gömrük xidməti general-leytenantı Aydın Əliyevin rəhbərlik etdiyi nümayəndə heyəti səfər zamanı Uruqvayın paytaxtı Montevideo şəhərində bir sıra görüşlər keçirmişdir. Uruqvay Şərq Respublikası Milli Gömrük İdarəsinin Baş direktoru, ÜGT-nin Latın Amerikası regionu üzrə sədr müavini Enrike Kanon Pedraqosa azərbaycanlı həmkarının Uruqvaya səfərindən məmnunluğunu bildirmiş, iki ölkənin gömrük orqanları arasında dostluq və əməkdaşlığın gücləndirilməsinə göstərilən diqqət və yardımı yüksək qiymətləndirmişdir. Uruqvay tərəfinin Azərbaycanla əməkdaşlığa çox böyük önəm verdiyini bildirən Enrike Pedraqosa qarşılıqlı münasibətlərin perspektivlərindən söhbət açmış, eləcə də gömrük xidmətləri arasında birgə fəaliyyətin, təcrübə mübadiləsinin əhəmiyyətini önə çəkmişdir. Səmimi qəbula və qonaqpərvərliyə görə Uruqvay tərəfinə təşəkkürünü bildirən Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin sədri, ÜGT-nin Avropa regionu üzrə sədr müavini Aydın Əliyev qeyd etmişdir ki, inkişaf yolu baxımından Uruqvay və Azərbaycan gömrüyünü oxşar cəhətlər birləşdirir. DGK sədri Azərbaycanla Uruqvay arasında əlaqələrin müxtəlif sahələrdə, o cümlədən, gömrük işi sahəsində genişləndirilməsi üçün böyük potensialın olduğunu və bu

imkandan maksimum yararlanmağın vacibliyini vurğulamışdır.

23-25 iyun tarixlərində Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin sədri, Ümumdünya Gömrük Təşkilatının Avropa regionu üzrə sədr müavini Aydın Əliyevin rəhbərliyi ilə nümayəndə heyəti Təşkilatın Baş Qərargahında keçirilən Siyasi Komissiyasının 71-ci Sessiyasında və 26-28 İyun tarixlərində ÜGT Şurasının 123/124-cü Sessiyasında iştirak etmək üçün Belçika Krallığının Brüssel şəhərində səfərdə olmuşdur. İki gün davam etməkdə olan iclasda Siyasi Komissiyanın fəaliyyəti ilə bağlı məsələlər müzakirəyə çıxarılmışdır. İclasda Komissiyanın sahələr üzrə illik hesabatları və strateji planı ilə yanaşı gömrük sahəsində aparılan islahatlar və yeni metodologiyalar haqqında məlumatlar verilmişdir. Aydın Əliyev səfər zamanı Kamerun Gömrük İdarəsinin Baş Direktoru xanım Libom Li Likeng Ni Mendomo Avumvele Minette, Seneqal Gömrüyünün Baş Direktoru Elimane Saliou Gninqu, Qabon Gömrük və Vasitəli Vergilər İdarəsinin Baş direktoru Mişel Ondinqa, İsveçrə Federal Gömrük İdarəsinin Baş Direktoru cənab Rudolf Dietrich, Ümumdünya Ticarət Təşkilatının Baş direktoru Roberto Azevedo ilə ikitərəfli görüşlər keçirmişdir.




26-27 iyun tarixlərində Filippinin paytaxtı Manila şəhərində Asiya İnkişaf Bankının Mərkəzi Asiya Regional İqtisadi Əməkdaşlıq Proqramı çərçivəsində Yüksək Vəzifəli Rəsmilərin iclası keçirilmişdir. İclasda Azərbaycan nümayəndə heyətinin tərkibində Dövlət Gömrük Komitəsinin nümayəndəsi da iştirak etmişdir. Tədbirə Əfqanıstan, Çin, Qazaxıstan, Qırğızıstan, Monqolustan, Pakistan, Tacikistan, Özbəkistan və Türkmənistan nümayəndə heyətləri, eləcə də Mərkəzi Asiya Regional İqtisadi Əməkdaşlıq (CAREC) Proqramı, Asiya İnkişaf Bankı (AİB), Beynəlxalq Valyuta Fondu, BMT-nin İnkişaf Proqramı və Dünya Bankının nümayəndələri qatılmışdır. Müzakirələrdə DFK nümayəndəsi çıxış edərək Azərbaycan gömrüyündə tətbiq olunan sadələşdirilmiş sərhəd-gömrük prosedurları,

yeniləşdirilmiş gömrük qanunvericiliyi, potensialın gücləndirilməsi istiqamətində aparılan işlər, həmçinin yeni yaradılan Gömrük Akademiyası barədə məlumat vermişdir. O da qeyd edilmişdir ki, Ermənistanın işğalı altında qalan Azərbaycan ərazilərində Sovet İttifaqının vaxtında mövcud olan beynəlxalq əhəmiyyətli yol infrastrukturları tamamilə dağıdılmışdır. Diqqətə çatdırılmışdır ki, sülh danışıqları nəticəsində həmin infrastrukturlar bərpa olunarsa CAREC çərçivəsində Azərbaycan üzərindən keçməklə yeni bir dəhliz yarana bilərdi. Bu isə tranzit yük daşımalarının həcminin ən azı 2 dəfə artmasına şərait yaradardı. Müzakirələr zamanı Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsi nümayəndəsinin təklifləri iştirakçılar tərəfindən dəstəklənərək qəbul edilmişdir.

**11 avqust** tarixində Bakı şəhərində, Ümumdünya Gömrük Təşkilatının Potensialın Gücləndirilməsi üzrə Avropa Regional Ofisində "Xəzər - mehriban qonşuluq" təşəbbüsü çərçivəsində ÜGT-nin "Qlobal Qalxan" proqramının növbəti təlim kursu işə başlamışdır. "Xəzər - mehriban qonşuluq" təşəbbüsünü 2013-cü ildə Azərbaycan Respublikasının Dövlət Gömrük Komitəsi ÜGT-nin Potensialın Gücləndirilməsi üzrə Avropa Regional Ofisi ilə birlikdə irəli sürmüşdür. Bu təklifi ÜGT bəyənmiş və onu "Qlobal Qalxan" proqramına daxil etmişdir. "Qlobal Qalxan" ÜGT-nin proqramı olub, BMT-nin Narkotiklər və Cinayətkarlıq üzrə İdarəsi, eləcə də İnterpolun dəstəyilə və ABŞ-ın Dövlət Departamenti tərəfindən maliyyələşdirilməklə həyata keçirilir. Sözügedən təşəbbüsə uyğun olaraq, Bakıda Əfqanıstan Gömrük Xidməti hüquq-mühafizə bölmələrinin əməkdaşları üçün ildə üç dəfə ikihəftəlik təlim kursları təşkil edilir. Bu kurslar partlayıcı maddələrin hazırlanmasında istifadə olunan kimyəvi vasitələrin aşkar edilməsi üzrə nəzarətçi-təlimçilərin hazırlığına dair keçirilir.

**15 avqust** tarixində Dövlət Gömrük Komitəsinin sədri, gömrük xidməti general-leytenantı Aydın Əliyev Amerika Birləşmiş Ştatları Səfirliyinin müvəqqəti işlər vəkili Derek Hoqanın rəhbərlik etdiyi nümayəndə heyətini qəbul etmişdir. Komitə sədri Azərbaycanla Amerika Birləşmiş Ştatları arasında bütün sahələr üzrə əməkdaşlığın yüksələn xətlə inkişaf etdiyini məmnunluqla diqqətə çatdırmış, ölkəmizin dünyanın ən inkişaf etmiş dövlətlərindən biri olan ABŞ ilə əlaqələrə xüsusi önəm verdiyini bildirmişdir. Azərbaycan və ABŞ gömrük xidmətləri arasında əlaqələrə gəlincə, istər ixraca nəzarət sistemi, kadr hazırlığı, terrorizmə, narkotik vasitələrin qanunsuz dövriyyəsinə qarşı mübarizə, istərsə də qanunvericilik bazasının möhkəmləndirilməsi, təcrübə mübadiləsi baxımından Azərbaycan Gömrük Xidmətinin Amerika təcrübəsindən xeyli yararlandığını bildirən Komitə sədri Dövlət Gömrük Komitəsi rəsmilərindən ibarət nümayəndə heyətinin Amerika Gömrük Xidmətinin işi ilə tanışlıq məqsədi daşıyan səfərlərini də məmnunluqla xatırlamış, bu səfərləri iki ölkənin gömrük qurumları arasında əməkdaşlığın genişləndirilməsi istiqamətində atılan uğurlu addım kimi səciyyələndirmişdir. Səmimi qəbula və ətraflı məlumata görə Dövlət Gömrük Komitəsinin sədri Aydın Əliyevə təşəkkür edən Amerika Birləşmiş Ştatları Səfirliyinin müvəqqəti işlər vəkili Derek Hoqan strateji müttəfiq kimi ABŞ hökumətinin Azərbaycanla əməkdaşlığa çox böyük önəm verdiyini qeyd etmiş, iki ölkə arasında istər siyasi istərsə də iqtisadi münasibətlərin hazırki durumundan məmnunluqla söhbət açmışdır.

**7-13 sentyabr** tarixlərində Seneqal Respublikası İqtisadiyyat və Maliyyə Nazirliyi Baş Gömrük İdarəsinin nümayəndə heyətinin Azərbaycan Respublikasına rəsmi səfəri olmuşdur. 8 sentyabr tarixdə Dövlət Gömrük Komitəsində görüş keçirilmişdir. Görüşdən öncə qonaqlar Fəxri xiyabana gələrək Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin, eləcə də görkəmli oftalmoloq-alim, akademik Zərifə xanım Əliyevanın xatirəsini anıb, məzarları üzərinə gül dəstələri düzüblər. Sonra qonaqlar Şəhidlər xiyabanında Azərbaycanın müstəqilliyi və ərazi bütövlüyü uğrunda canlarından keçən Vətən övladlarının məzarlarını ziyarət ediblər. Həmin gün Seneqal Respublikası İqtisadiyyat və Maliyyə Nazirliyi Baş Gömrük İdarəsinin nümayəndə heyətinin Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin rəhbərliyi ilə görüşü keçirilib. Dövlət Gömrük Komitəsinin sədri, gömrük xidməti general-leytenantı Aydın Əliyev qeyd edib ki, Seneqal və Azərbaycan arasında diplomatik münasibətlər olsa da, lakin indiyədək iqtisadi və digər sahələrdə ikitərəfli əlaqələr formalaşmayıb. İqtisadiyyatın konkret sahəsi üzrə Seneqalın ilk rəsmi nümayəndə heyətinin Azərbaycana səfərindən məmnunluğunu bildirən Komitə sədri gömrük orqanları vasitəsilə yaradılan bu ilk əməkdaşlıq əlaqələrinin hər iki ölkənin digər sahələrdə də qarşılıqlı münasibətlərinin yaradılması işinə böyük töhfə verəcəyinə əmin olduğunu vurğulayıb. Nümayəndə heyətinin rəhbəri, Seneqal Respublikası İqtisadiyyat və Maliyyə Nazirliyi Baş Gömrük İdarəsinin baş direktorunun müavini Aliou Ndiaye Azərbaycan və Seneqal gömrük orqanları arasında dostluq və əməkdaşlığın gücləndirilməsinə göstərilən diqqət və yardımı yüksək qiymətləndirib. Qonaq Azərbaycan Gömrük Xidmətinin əldə etdiyi uğurların Seneqal tərəfində maraqla qarşılandığını, o cümlədən azərbaycanlı həmkarlarının təcrübəsini öyrənməkdə və gömrük işinin bütün sahələrində əməkdaşlıqda maraqlı olduqlarını vurğulayıb.



**17-19 sentyabr** tarixlərində Dövlət Gömrük Komitəsinin sədri, gömrük xidməti general-leytenantı Aydın Əliyevin rəhbərliyi ilə Azərbaycan Gömrük Xidmətinin nümayəndə heyəti beynəlxalq PICARD Konfransında iştirak etmək məqsədilə Meksikanın Puebla şəhərində səfərdə olmuşlar. ÜGT tərəfindən 2006-cı ildən etibarən hər il təşkil edilən PICARD konfransları gömrük mütəxəssisləri, gömrük tədqiqatları aparan müəssisələr, donor təşkilatları və beynəlxalq təşkilatlar üçün unikal platforma rolunu oynayır. Bu beynəlxalq konfrans gömrük işi və beynəlxalq ticarət sahəsində akademik araşdırmaları, tədris prosesini və təcrübə mübadiləsini təşviq edir. Konfransda Beynəlxalq Gömrük İnstitutları Şəbəkəsinin təqdimatında 21-23 May 2014-cü ildə Bakı şəhərində keçirilmiş INCU-nun beynəlxalq konfransı haqqında geniş məlumat verilmiş və bu konfransda qəbul edilmiş Bakı Bəyannaməsinin müddəaları açıqlanmışdır. Xalqımızın mədəniyyətini, adət və ənənələrini özündə əhatə edən konfransın mədəni proqramı haqqında müxtəlif slaydlar göstərilmiş, Komitə sədri Aydın Əliyevə konfransın yüksək səviyyədə təşkil olunması və qonaqpərvərliyə görə INCU rəhbərliyi adından minnətdarlıq bildirilmişdir. Tədbirin son günündə 10-cu Beynəlxalq PICARD konfransının Azərbaycanda keçirilməsi ÜGT rəsmiləri tərəfindən elan edilmişdir. Səfər çərçivəsində Aydın Əliyev Meksika Birləşmiş Ştatları Baş Gömrük İdarəsinin Baş Gömrük Administratoru Alejandro Chacón ilə görüş keçirmişdir. Görüş zamanı gömrük xidmətləri arasında ikitərəfli əməkdaşlığın daha da genişləndirilməsi, gömrük işinin bir sıra istiqamətləri üzrə, o cümlədən kinoloji sahədə və informasiya-kommunikasiya texnologiyaları sahəsində əməkdaşlıq perspektivləri barədə fikir mübadiləsi aparılmışdır. Eyni zamanda, "Azərbaycan Respublikası Hökuməti və Meksika Birləşmiş Ştatları Hökuməti arasında gömrük işi sahəsində qarşılıqlı inzibati yardım və məlumat mübadiləsi haqqında Saziş" layihəsi üzrə də müzakirələr aparılmışdır.

**22-23 sentyabr** tarixlərində Qırğız Respublikasının Çolpon-Ata şəhərində Qırğız Respublikası Hökuməti yanında Dövlət Gömrük Xidmətinin təşkilatçılığı ilə Asiya İnkişaf Bankının Mərkəzi Asiya Regional İqtisadi Əməkdaşlıq Proqramı çərçivəsində Gömrük Əməkdaşlıq Komitəsinin 13-cü iclası keçirilmişdir. Əfqanıstan İslam Respublikası, Çin Xalq Respublikası, Qazaxıstan Respublikası, Qırğız Respublikası, Monqolustan, Pakistan İslam Respublikası, Tacikistan Respublikası, Türkmənistan və Özbəkistan Respublikasının gömrük xidmətlərinin rəhbər vəzifəli şəxslərinin qatıldığı iclasda respublikamızı Dövlət Gömrük Komitəsi sədrinin müavini, gömrük xidməti general-leytenantı Rza Həsənəliyevin rəhbərliyi altında nümayəndə heyəti təmsil etmişdir. İclası Qırğız Respublikası Hökuməti yanında Dövlət Gömrük Xidmətinin rəhbəri Adamkul Junusov açaraq Gömrük Əməkdaşlıq Komitəsinə daim göstərdiyi dəstəyə görə Asiya İnkişaf Bankına minnətdarlığını bildirmişdir. O, öz çıxışında gömrük işi sahəsində beynəlxalq əməkdaşlığın və vahid avtomatlaşdırılmış informasiya sisteminin əhəmiyyətini xüsusi olaraq vurğulamışdır. Tədbirin sonunda Gömrük Əməkdaşlıq Komitəsinin 14-cü iclasının Monqolustanda keçirilməsi razılaşdırılmışdır. Qeyd etmək istərdik ki, tədbir çərçivəsində Komitə sədrinin müavini Rza Həsənəliyev Qırğız Respublikası Hökuməti yanında Dövlət Gömrük Xidmətinin rəhbəri Adamkul Junusov ilə ikitərəfli görüş keçirmişdir. Adamkul Junusov ilə keçirilmiş görüşdə gömrük işi sahəsində perspektivlər müzakirə edilmiş və "Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsi və Qırğız Respublikası Hökuməti yanında Dövlət Gömrük Xidməti arasında kadrların peşəkar hazırlığı

və ixtisasının artırılması sahəsində əməkdaşlıq haqqında Protokol"un imzalanması barədə fikir mübadiləsi aparılmışdır.

**30 sentyabr - 2 oktyabr** tarixlərində İran İslam Respublikası iqtisadiyyat və maliyyə işləri nazirinin müavini, Gömrük İdarəsinin prezidenti Masoud Karbasianın rəhbərlik etdiyi nümayəndə heyəti Azərbaycanda səfərdə olub. Dövlət Gömrük Komitəsində keçirilən ikitərəfli görüşdə iki qonşu ölkənin siyasi-iqtisadi və mədəni sahələrdə əlaqələrindən söhbət açan DGK sədri, gömrük xidməti general-leytenantı Aydın Əliyev Azərbaycan-İran əlaqələrinin tarixiliyinə işarə etmiş və xatırlatmışdır ki, Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyev hələ Naxçıvan Ali Məclisinin sədri olduğu dövrdə İranla əlaqələrin möhkəmləndirilməsinə xüsusi diqqət yetirib. "Bu gün Azərbaycan və İran arasında münasibətlər yeni səviyyəyə çatıb" - deyə sözünə davam edən A. Əliyev nəzərə çatdırıb ki, bunu Həştərxanda Xəzəryanı ölkələrin dövlət başçılarının IV Sammiti çərçivəsində Azərbaycan Prezidenti İlham Əliyevin ilk görüşünün İran Prezidenti Həsən Ruhani ilə keçirilməsi də təsdiqləyir. Ölkələrimiz arasında ikitərəfli münasibətlərin uğurla inkişaf etdiyini söyləyən DGK sədri bildirib ki, bütün sahələrdə, o cümlədən gömrük sferasında qarşılıqlı əməkdaşlıq yüksək səviyyədədir.



**15-19 sentyabr** tarixlərində Avstraliyanın Melburn şəhəri Konservasiya üçün Beynəlxalq Muzeylər Şurası Komitəsinin 17-ci üçillik Konfransına ev sahibliyi edib. Konfrans "Konservasiya vasitəsilə güclü mədəniyyət yaratmaq" devizi altında keçirilib. Tədbirdə Dövlət Gömrük Komitəsi "Azərterminalkompleks" Birliyinin direktoru, gömrük xidməti general-mayoru Qambay Əliyevin rəhbərliyi ilə nümayəndə heyəti iştirak edib. Tədbir Melburn

Universitetinin prorektoru və 17-ci konfransın sponsoru professor Qlin Deyvis tərəfindən açıq elan edilib. Q. Deyvis Yeni Zellandiya, Fransa, Azərbaycan, Çin və Birləşmiş Krallıq daxil olmaqla, 51 ölkənin nümayəndə heyəti, eləcə də Avstraliyanın aborigen birliyinin nümayəndələrinin qatıldığı konfransda iştirak etməkdən qürur duyduğunu vurğulayıb. Sonra konfrans Beynəlxalq Muzeylər Şurasının (ICOM) prezidenti, professor-doktor Hans-Martin Hinz tərəfindən davam etdirilib. ICOM-un 86 ölkədən 2200 üzvünün olduğunu diqqətə çatdıran qurumun rəhbəri muzeyləri mədəni mirasın qorunub saxlanılmasında məsuliyyət daşıyan unikal xəzinənin bələdçiləri kimi qiymətləndirilib.

**24-26 sentyabr** tarixlərində Fransanın Bordo şəhərində Beynəlxalq Gömrük Muzeyləri Assosiasiyasının (IACM) 22-ci Konfransı və Baş Assambleyası keçirilmişdir. Tədbirdə Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin "Azərterminalkompleks" Birliyinin direktoru, gömrük xidməti general-mayoru Qambay Əliyevin rəhbərlik etdiyi nümayəndə heyəti iştirak etmişdir. Tədbirin birinci günü IACM-in prezidenti Henri Nimaks və Jan Roald L-Hermitin nitqləri dinlənilib. Növbəti gün IACM-in prezidenti Henri Nimaksın giriş nitqiylə işə başlayan Baş Assambleyada xanim Van Puymbroek və Jan Hlinka hesabatla çıxış ediblər. Sonra keçən il Bakıda keçirilən IACM-in 21-ci Konfransı və Baş Assambleyasının yüksək səviyyədə təşkilinə görə Azərbaycan nümayəndə heyətinə minnətdarlıq bildirilib. Tədbirin üçüncü günündə Azərbaycan nümayəndə heyətinin rəhbəri Qambay Əliyev çıxış edərək, konfrans iştirakçılarına IACM və Azərbaycan Gömrük Xidməti arasındakı əməkdaşlıq, eləcə də Azərbaycan Gömrük Tarixi Muzeyinin yeni layihələri barədə məlumat verib. Bildirilib ki, Azərbaycan Respublikasının Dövlət Gömrük Komitəsi ilə birgə həyata keçirilən bu layihələrdən birincisi "Azərbaycan Gömrük Muzeyi və dünya muzeyləri və muzey ittifaqları" adlı jurnaldır. Burada 2008-ci ildən 2014-cü ilin mayınadək Azərbaycan Gömrük Xidməti, eləcə də Azərbaycan Gömrük Tarixi Muzeyinin dünya muzeyləri və beynəlxalq muzey təşkilatları ilə əməkdaşlıq əlaqələrindən və birgə fəaliyyətindən ətraflı bəhs olunur.

**7-10 oktyabr** tarixlərində İsveçrə Konfederasiyasının Cenevrə şəhərində Birləşmiş Millətlər Təşkilatı Avropa İqtisadi Komissiyasının Nəqliyyatla bağlı Gömrük Məsələləri üzrə İşçi Qrupunun 138-ci və "BYD kitabçası tətbiq edilməklə beynəlxalq yük daşımaları haqqında 1975-ci il tarixli Gömrük Konvensiyası"nın İnzibati Komitəsinin 59-cu sessiyaları keçirilmişdir. Tədbirlərdə Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin sədr müavini, gömrük xidməti general-leytenantı Şahin Bağırov iştirak etmişdir. Qeyd edək ki, Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin nümayəndəsi BMT Avropa İqtisadi Komissiyası tərəfindən idarə olunan "Sərhədlərdə yüklərin nəzarətdən keçirilməsi şərtlərinin razılaşdırılması haqqında" Beynəlxalq Konvensiyanın (1982-ci il) İnzibati Komitəsinin sədri vəzifəsinə seçilmişdir.

**3 oktyabr** tarixində Maltanın paytaxtı Valletta şəhərində "Narkotiklərə yox!" adlı sərgi açılıb. Sərgini maltalı həmkarlarının dəstəyi ilə Azərbaycan Gömrük Xidməti və Gömrük Tarixi Muzeyinin nümayəndələri təşkil edib. Bu məqsədlə Dövlət Gömrük Komitəsi "Azərterminalkompleks" Birliyinin direktoru, gömrük xidməti general-mayoru Qambay Əliyevin rəhbərlik etdiyi nümayəndə heyəti Valletta şəhərində səfərdə olub. Muzeydəki sərgidə nümayiş olunan hər bir eksponat narkotiklərdən istifadənin dəhşətli fəsadları barədə

bəşəriyyətə mesaj verir. Bu əsərlər indiyədək Azərbaycan Gömrük Xidməti tərəfindən Avstriya, Portuqaliya və Makedoniyada keçirilən sərgilərdə nümayiş etdirilib. Sonra qonaqlar Azərbaycan gömrüyünün yeni layihəsi - 40 dəqiqəlik “Back to the beginning” (“Əvvələ qayıdış”) filmini seyr ediblər. Film narkotiklərə qarşı mübarizədə Azərbaycanın təcrübəsi, narkotik vasitələrin sərhəddən keçirilməsinin gizli üsulları, narkotik aludəçiləri və onların ailələrinin fiziki və psixoloji sağlamlığına vurulan sağalmaz yaralardan bəhs edir. Daha sonra Azərbaycan nümayəndə heyətinin rəhbəri çıxış edərək səmimi qarşılanmaya görə muzey kuratoruna təşəkkürünü bildirib və muzeyə əl işi olan Azərbaycan xalçası və Azərbaycan haqqında kitabları təqdim edib.

**6-11 oktyabr** tarixlərində İsveçrənin Cenevrə şəhərində BMT Avropa İqtisadi Komissiyasının Nəqliyyatla bağlı Gömrük məsələləri üzrə İşçi Qrupunun (WP.30) 138-ci və BYD Konvensiyasının İnzibati Komitəsinin 59-cu sessiyaları keçirilib. Tədbirdə Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsi sədrinin müavini, gömrük xidməti general-leytenantı Şahin Bağırov iştirak edib. Qəzetimizin əməkdaşı ilə söhbətində Ş.Bağırov bildirib ki, BMT Avropa İqtisadi Komissiyasının Nəqliyyatla bağlı Gömrük məsələləri üzrə İşçi Qrupunun (WP.30) 138-ci sessiyasında BMT Avropa İqtisadi Komissiyasının digər orqanlarının fəaliyyəti, “BYD kitabçasından istifadə etməklə Beynəlxalq yük daşımaları haqqında gömrük Konvensiyası (1975)”, “Sərhədlərdə yüklərin yoxlanılmasının şərtlərinin razılaşdırılması üzrə Beynəlxalq Konvensiya (1982)” və “Sərnişinlərin və baqajın dəmiryolu daşımaları şərtlərinin asanlaşdırılmasına dair” 10 yanvar 1952-ci il tarixli Konvensiya və digər məsələlər nəzərdən keçirilib.

**14-17 oktyabr** tarixlərində Özbəkistan Respublikası Dövlət Gömrük Komitəsinin sədri Zoxid Dusanovun rəhbərlik etdiyi nümayəndə heyəti Azərbaycanda səfərdə olub. Nümayəndə heyəti səfərin ilk günü öncə Fəxri xiyabana gələrək Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin, eləcə də görkəmli oftalmoloq-alim, akademik Zərifə xanım Əliyevanın xatirəsini anıb, məzarları üzərinə gül dəstələri düzüb. Sonra qonaqlar Şəhidlər xiyabanında Azərbaycanın müstəqilliyi və ərazi bütövlüyü uğrunda canlarından keçən Vətən övladlarının məzarlarını ziyarət ediblər. Sonra Özbəkistan Respublikası Dövlət Gömrük Komitəsinin sədri Zoxid Dusanovun rəhbərlik etdiyi nümayəndə heyətinin Azərbaycan Gömrük Xidmətinin rəhbərliyi ilə görüşü keçirilib. Görüşdə Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin sədri, gömrük xidməti general-leytenantı Aydın Əliyev iki ölkənin siyasi-iqtisadi və mədəni sahələrdə əlaqələrindən söhbət açıb, Azərbaycan və Özbəkistanı tarixən qardaşlıq münasibətlərinin birləşdirdiyini vurğulayıb. Hər iki ölkənin uğurlu inkişaf yolu ilə irəlilədiklərini söyləyən Komitə sədri, eyni zamanda, Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin müasir Azərbaycan dövlətinin yaranıb formalaşmasındakı xidmətlərini xatırladıb, Prezident İlham Əliyev tərəfindən bu gün ölkədə həyata keçirilən quruculuq və inkişaf proseslərindən bəhs edib. Səmimi qəbula görə Azərbaycan Gömrük Xidmətinin rəhbərliyinə təşəkkür edən Özbəkistan Respublikası Dövlət Gömrük Komitəsinin sədri Zoxid Dusanov Azərbaycana səfərindən məmnun qaldığını söyləyib. İki qardaş ölkənin əlaqələrinin yüksək səviyyədə olduğunu vurğulayan qonaq, yaxın perspektivdə qarşılıqlı əməkdaşlığın daha da genişlənəcəyinə əminliyini ifadə edib.



16 oktyabr tarixində Ümumdünya Gömrük Təşkilatının Bakı şəhərindəki Potensialın Gücləndirilməsi üzrə Avropa Regional Ofisində BMT-nin Narkotik və Cinayətkarlığa Qarşı Mübarizə İdarəsinin və ÜGT-nin birgə layihəsi olan “Konteyner Daşınmalarına Nəzarət üzrə Qlobal Proqram” layihəsi çərçivəsində təlimlər keçirilmişdir. Azərbaycan, Qazaxıstan, Türkmənistan, Özbəkistan və Tacikistanın gömrük orqanlarının əməkdaşlarının qatıldığı təlimlərdə ÜGT-nin nümayəndələri Peter Timmermans, Cesar Sohiaffino və Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin mütəxəssisləri tərəfindən iştirakçılara risklərin idarə olunması və qiymətləndirilməsi, elektron qeydiyyat, konteyner plomblarının saxtalaşdırılması və digər mövzularda məlumat verilmişdir. Mütəxəssislər beynəlxalq təcrübədən nümunələr gətirərək bu proqramın icra olunması ilə birlikdə gömrük sahəsində hüquqpozmaların və narkotik qaçaqmalçılığının qarşısının alınmasında ciddi nailiyyətlərin əldə olunacağını vurğulamışlar. Təlimlərin ikinci günündə proqram çərçivəsində BMT-nin Narkotiklər və Cinayətkarlığa Qarşı Mübarizə İdarəsi tərəfindən Azərbaycan gömrüyünə 2 ədəd kimyəvi maddələrin müəyyən edilməsində istifadə olunan “Hazmat” avadanlığı təqdim edilmişdir. Bu münasibətlə imzalama mərasimi keçirilmişdir.

21 oktyabr tarixində Ümumdünya Gömrük Təşkilatının Bakı şəhərindəki Potensialın Gücləndirilməsi üzrə Avropa Regional Ofisində “Səlahiyyətli İqtisadi Operator” haqqında seminar keçirilmişdir. Gömrük əməkdaşlarının iştirakı ilə gerçəkləşən seminar Asiya İnkişaf Bankının dəstəyi ilə keçirilir. Seminarın açılış mərasimində Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsi sədrinin müavini, gömrük xidməti general-leytenantı Şahin Bağırov qonaqları və iştirakçıları salamlayaraq tədbirin təşkilində göstərdikləri dəstəyə görə Ümumdünya Gömrük Təşkilatına və Asiya İnkişaf Bankına təşəkkürünü bildirib. O

Səlahiyyətli İqtisadi Operatorların (SİO) tətbiqinin Beynəlxalq ticarət zəncirinin təhlükəsizliyi baxımından önəmi haqqında danışıb. Seminarda çıxış edən Asiya İnkişaf Bankının ölkəmizdəki daimi nümayəndəliyinin rəhbəri cənab Olli Noroyono təmsil etdiyi qurumun SİO-larla bağlı prioritetlərindən danışıb. Ümumdünya Gömrük Təşkiatının nümayəndəsi Corc Kanton çıxışında təmsil etdiyi qurum adından DGK-nə təşəkkürünü bildirib. O SİO-ların beynəlxalq ticarətin asanlaşması, təhlükəsizliyinin təmin olunması və gömrük-biznes əməkdaşlığının formalaşmasında müsbət rol oynayacağını vurğulayıb.

**28 oktyabr** tarixində Dövlət Gömrük Komitəsinin sədri, gömrük xidməti general-leytenantı Aydın Əliyev Norveç Krallığının Azərbaycandakı fövqəladə və səlahiyyətli səfiri Baard İvar Svendsenin rəhbərlik etdiyi nümayəndə heyətini qəbul etmişdir. Qonaqları səmimiyyətlə salamlayan Dövlət Gömrük Komitəsinin sədri Aydın Əliyev Azərbaycan ilə Norveç arasında mövcud iqtisadi, siyasi, mədəni əlaqələrdən söhbət açmış, bu əlaqələrin bundan sonra daha da genişlənəcəyinə əminliyini ifadə etmişdir. Tanınmış norveçli səyyah, etnoqraf, alim-antropoloq, mərhum Tur Heyerdalın Azərbaycana səfərlərini də məmnunluqla xatırlayan Komitə sədri Azərbaycan-Norveç əlaqələrinin təkcə iqtisadi sferanı deyil, mədəni, tarixi köklərə əsaslanan münasibətləri də əhatə etdiyini diqqətə çatdırmış və onu da vurğulamışdır ki, ölkələr arasında əməkdaşlığın, o cümlədən iqtisadi-ticari münasibətlərin inkişaf etdirilməsində gömrük xidmətinin də öz yeri var və gömrük sistemi bu sahədə körpü rolunu oynayır. Səmimi qəbula görə təşəkkürünü bildirən Norveç Krallığının Azərbaycandakı fövqəladə və səlahiyyətli səfiri Baard İvar Svendsen respublikamızda diplomatik fəaliyyət göstərməyindən məmnunluğunu ifadə etmişdir.

**22-23 oktyabr** tarixlərində Moskva şəhərində, "Eksposentr" mərkəzi sərgi kompleksində XV Beynəlxalq "Gömrük xidməti-2014" sərgisi keçirilib. Sərgidə Azərbaycan Gömrük Xidmətinin ekspozisiyası peşəkarlarla yanaşı, qonaqların da böyük marağına səbəb olub. Sərgidə Dövlət Gömrük Komitəsi "Azərterminalkompleks" Birliyinin direktoru, gömrük xidməti general-mayoru Qambay Əliyevin rəhbərlik etdiyi nümayəndə heyəti iştirak edib. Bu il sərgiyə Belarus, Qazaxıstan, Çin, Latviya, Litva, Finlandiya, Estoniya və digər ölkələrin gömrük xidmətlərinin nümayəndələri qatılıb. Ümumilikdə, sərgiyə yüzdən çox eksponent cəlb edilib. Bunlar Rusiya və digər ölkələrin şirkətləri - xarici iqtisadi fəaliyyət iştirakçıları, gömrük nümayəndələri, daşıyıcılar, müvəqqəti saxlama anbarlarının və gömrük anbarlarının, eləcə də xarici ticarətin həyata keçirilməsi zamanı xidmətlərin geniş spektrini - informasiya, maliyyə, logistika, tikinti və s. xidmətləri göstərən müəssisələrin sahibləridir.

**29 oktyabr** tarixində Moskva şəhərində Azərbaycan və Rusiya gömrük xidmətləri arasında ikitərəfli işçi görüş keçirilib. Görüşdə Azərbaycan tərəfini Dövlət Gömrük Komitəsi sədrinin müavini, gömrük xidməti general-leytenantı Əsgər Abdullayevin rəhbərlik etdiyi nümayəndə heyəti təmsil edib. Görüşdə məqsəd "Rusiya Federasiyası Federal Gömrük Xidməti və Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsi arasında 2015-2016-cı illərdə gömrük hüquqpozmaları ilə mübarizə sahəsində birgə fəaliyyət planı"nın müzakirəsi və imzalanması, həmçinin "Rusiya Federasiyası Federal Gömrük Xidməti və Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsi arasında malların hava nəqliyyatı vasitəsilə daşınması ilə bağlı gömrük hüquqpozmaları ilə mübarizə sahəsində qarşılıqlı fəaliyyət haqqında Protokol" layihəsinin

müzakirəsi və gələcəkdə bu ölkələrin gömrük xidməti rəhbərləri tərəfindən imzalanması üçün hazırlıq işləri üzrə fikir mübadiləsinin aparılması olmuşdur. Azərbaycan tərəfi Rusiya Federal Gömrük Xidmətinin Mərkəzi Aparatında Rusiya Federal Gömrük Xidməti rəhbərinin müavini Ruslan Davıdovun başçılıq etdiyi işçi qrupla görüşərək sözügedən məsələlər ətrafında müzakirələr aparmışdır.

**11 noyabr** tarixində Ümumdünya Gömrük Təşkilatının Bakı şəhərindəki Potensialın Gücləndirilməsi üzrə Avropa Regional Ofisində "Xəzər - mehriban qonşuluq" təşəbbüsü çərçivəsində ÜGT-nin "Qlobal Qalxan" proqramının növbəti təlim kursu keçirilmişdir. Bu dəfəki təlim kurslarına Əfqanıstan Gömrük Xidmətinin qadın əməkdaşları cəlb olunmuşdur. "Xəzər - mehriban qonşuluq" təşəbbüsünü 2013-cü ildə Azərbaycan Respublikasının Dövlət Gömrük Komitəsi ÜGT-nin Potensialın Gücləndirilməsi üzrə Avropa Regional Ofisi ilə birlikdə irəli sürüb. "Qlobal Qalxan proqramı BMT-nin Narkotiklər və Cinayətkarlıq üzrə İdarəsi, eləcə də İnterpolun dəstəyi ilə və ABŞ-ın Dövlət Departamenti tərəfindən maliyyələşdirilməklə " ÜGT tərəfindən həyata keçirilir. Sözügedən təşəbbüsə uyğun olaraq, Bakıda Əfqanıstan Gömrük Xidmətinin əməkdaşları üçün ildə üç dəfə ikihəftəlik təlim kursları təşkil edilir. Bu kurslar partlayıcı maddələrin hazırlanmasında istifadə olunan kimyəvi vasitələrin aşkar edilməsi üzrə nəzarətçi-təlimçilərin hazırlığına dair keçirilir.

**20 noyabr** tarixdə Dövlət Gömrük Komitəsi sədrinin müavini, gömrük xidməti general-leytenantı Əsgər Abdullayev Avropa Komissiyasının Dələduzluqla Mübarizə İdarəsinin (OLAF) baş direktoru Covanni Kesslerin rəhbərlik etdiyi nümayəndə heyətini qəbul etmişdir. Qonaqları səmimiyyətlə salamlayan DGK sədrinin müavini Əsgər Abdullayev Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsi və Avropa Komissiyasının Dələduzluqla Mübarizə İdarəsi arasında qurulacaq əməkdaşlıq imkanlarından bəhs etmişdir. İqtisadi təhlükəsizliyin keşiyində ayıq-sayıq dayanan Azərbaycan gömrük orqanlarının qaçaqmalçılıq və gömrük hüquqpozmalarına qarşı mübarizə istiqamətində konkret və məqsədyönlü tədbirlər həyata keçirdiyini qeyd edən sədr müavini mübarizənin daha effektli təşkili üçün istər beynəlxalq təşkilatlarla, istərsə də qonşu dövlətlərin müvafiq qurumları ilə birgə əməkdaşlığın əhəmiyyətini vurğulamışdır. Səmimi qəbula görə təşəkkürünü bildirən Covanni Kessler Azərbaycan Respublikasının Avropa Komissiyası ilə mövcud əməkdaşlığından məmnunluqla söhbət açmış, əlaqələrin daha da inkişaf etdirilməsi üçün mövcud potensialdan maksimum yararlanmağın vacibliyindən bəhs etmişdir.

**26 noyabr** tarixində Bakıda Ümumdünya Gömrük Təşkilatının Potensialın Gücləndirilməsi üzrə Avropa Regional Ofisində Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatına (QDİƏT) üzv dövlətlərin gömrük idarələri rəhbərlərinin iclası keçirilmişdir. "Ticarətin asanlaşdırılmasında gömrük xidmətlərinin təşəbbüsü" mövzusuna həsr edilən toplantıya Azərbaycanla yanaşı, Bolqarıstan, Rumıniya, Ukrayna, Yunanıstan, Rusiya, Türkiyə, Moldova və Gürcüstan nümayəndə heyətləri qatılmışdır. İclasdan öncə tədbir iştirakçıları Fəxri xiyabana gələrək Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin xatirəsini ehtiramla anıb, abidəsi önünə əklil qoyub, eləcə də görkəmli oftalmoloq-alim, akademik Zərifə xanım Əliyevanın məzarı üzərinə gül dəstələri düzüblər. Sonra isə qonaqlar Şəhidlər xiyabanında Azərbaycanın müstəqilliyi və ərazi bütövlüyü uğrunda canlarından keçmiş Vətən övladlarının

məzarlarını ziyarət ediblər. Daha sonra ÜGT-nin Potensialın Gücləndirilməsi üzrə Avropa Regional Ofisində iclasın açılış mərasimi keçirilib. Mərasimi giriş sözü ilə açan Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsi sədrinin müavini, gömrük xidməti general-leytenantı Rza Həsənəliyev QDİƏT-in fəaliyyətinin üzv ölkələr arasında iqtisadi əməkdaşlığa böyük təkan verdiyini bildirib, ölkələrin iqtisadi təhlükəsizliyinin təmin edilməsi üçün gömrük xidmətləri arasında əməkdaşlığın çox vacib olduğunu və Bakı görüşünün bu sahədə təcrübə mübadiləsi bax ımından faydalı olacağını vurğulayıb.



**4 dekabr** tarixində Rusiya Federasiyasının Soçi şəhərində Müstəqil Dövlətlər Birliyi iştirakçı dövlətlərin Gömrük Xidməti Rəhbərləri Şurasının 60-cı iclası keçirilmişdir. Tədbirdə Dövlət Gömrük Komitəsinin sədri, gömrük xidməti general-leytenantı Aydın Əliyevin rəhbərliyi altında respublikamızın nümayəndə heyəti də iştirak etmişdir. İclasda, əsasən 2012-2015-ci illər ərzində MDB üzv dövlətlərin gömrük orqanlarının mətbuat xidmətlərinin ictimaiyyətlə əlaqələrin təmin edilməsi üzrə qarşılıqlı fəaliyyət Konsepsiyasının müddəalarının həyata keçirilməsi, Dəmiryol nəqliyyatı ilə keçirilən malların gömrük rəsmiləşdirilməsi və nəzarəti zamanı MDB üzv dövlətlərin gömrük orqanları və dəmir yolu idarələrinin qarşılıqlı fəaliyyəti-nin nümunəvi texnologiyasına dəyişikliklər edilməsi haqqında Protokol layihəsi, MDB üzv dövlətlərin Gömrük Xidməti Rəhbərləri Şurasının Hüquq Mühafizə Bölmələri Başçıları Ko-mitəsinin və Ümumdünya Gömrük Təşkilatının hüquq mühafizə fəaliyyəti üzrə Regional Əlaqələndirmə Qovşağı RİLO-Moskvanın 2015-ci il üçün iş planlarının təsdiqi və digər məsələlər müzakirə edilmişdir.

**8 dekabr** tarixində Bakı şəhərində Ümumdünya Gömrük Təşkilatının Avropa Regionunun Potensialın Gücləndirilməsi üzrə Milli Əlaqələndirici Şəxslərinin iclası işə başlamışdır. ÜGT-nin Potensialın Gücləndirilməsi üzrə Avropa Regional Ofisində təşkil olunan tədbirə

Azərbaycan da daxil olmaqla, 21 iştirakçı ölkənin, eləcə də Avropa Komissiyası və Ümumdünya Gömrük Təşkilatının nümayəndə heyətləri qatılıb. İclasın açılış mərasimində Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin sədri Aydın Əliyev çıxış edərək bildirib ki, Ümumdünya Gömrük Təşkilatının təsis edildiyi dövrdən hazırladığı strategiyalardan biri də Potensialın Gücləndirilməsi Strategiyasıdır. Bakıda keçirilən görüş bu strategiyanın məqsədlərinə nail olmaq üçün səmərəli potensialın gücləndirilməsi tədbirlərinin həyata keçirilməsində regional yanaşmanı daha da artırmaq imkanı yaradır. Öz növbəsində, ÜGT-nin Avropa Regionu üzrə sədr müavininin ofisinin nümayəndəsi Jean-Michel Grave və ÜGT Katibliyinin nümayəndəsi Roger Hermann çıxışlarında əmin olduqlarını bildiriblər ki, bütün tədbir iştirakçıları Bakı görüşündən mümkün olan ən yaxşı şəkildə faydalanacaqlar.

**10 dekabr** tarixdə Türkiyə Respublikasının İstanbul şəhərində Türkiyə İxracatçılar Məclisinin ev sahibliyi ilə “Sabahın dəyişən ssenarisi: mürəkkəbliyi dərk etmək və dialoqları inkişaf etdirmək” mövzusunda 5-ci Bosfor Sammiti öz işinə başlamışdır. Sammitdə Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsi sədrinin birinci müavini, gömrük xidməti general-leytenantı Səfər Mehdiyevin başçılıq etdiyi nümayəndə heyəti də iştirak etmişdir. Zirvə toplantısının ilk iclası 21 ölkənin iştirakı ilə keçirilmiş və son 4 ildə daha 55 ölkə bu sammitin iclaslarına qoşulmuşdur. Zirvə toplantısının bu dəfəki iclasında 70 ölkəni təmsil edən dünya liderləri, yüksək rütbəli dövlət məmurları, dünyanın tanınmış investisiya şirkətləri və 100-dən artıq özəl şirkətin rəhbərləri qatılmışdır. Eyni zamanda, toplantıda şahzadə Mohammad Al Faisal Al Saud, Böyük Britaniyanın keçmiş maliyyə naziri Lord Norman Lamont, Küveyt şahzadəsi Şeyx Farihah Al Ahmad Al Jaber Al Sabah, Pakistanın sabiq baş naziri Şaukat Əziz iştirak etmişlər. Sammitdə investisiya imkanlarının araşdırılması, yeni bazar prinsipləri, İslam bankçılığı və dünyada dinamik dəyişən cəmiyyətin digər problemləri kimi məsələlər ilə bağlı dəyirmi masalar təşkil edilmişdir.

**15 dekabr** tarixində Ümumdünya Gömrük Təşkilatının Bakı şəhərindəki Potensialın Gücləndirilməsi üzrə Avropa Regional Ofisində “Risklərin idarə olunması” mövzusunda seminar keçirilmişdir. İsveçrə Federal Gömrük İdarəsinin ekspertlərinin apardığı seminar Dövlət Gömrük Komitəsinin əməkdaşları üçün nəzərdə tutulub və məqsəd risklərin idarə olunması sahəsində İsveçrə təcrübəsini öyrənməkdir. Seminarın açılış mərasimində çıxış edən Dövlət Gömrük Komitəsi Audit və Risk Analizləri İdarəsinin rəisi Faiq Seyidov bildirmişdir ki, müasir dövrdə iqtisadiyyat, informasiya və kommunikasiya texnologiyaları və digər sahələrdə gedən inkişaf prosesləri dövlət institutlarını bir çox çağırışlara cavab verməyi tələb edir. Öz növbəsində, gömrük orqanlarında effektiv menecment və biznes proseslərinin idarə edilməsi üzrə alətlərin əldə edilməsinə ehtiyac yaranıb ki, bunlardan biri də müasir gömrük işində geniş istifadə olunan risklərin idarə edilməsidir.